UOT 37.0

**Akif Nurağa oğlu Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, Əməkdar müəllim*

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTUNUN ELM VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏSİ

**Акиф Нурага оглу Аббасов,**
*доктор наук по педагогике, профессор*
*ученый секретарь Института Образования Азербайджанской Республики, Заслуженный учитель*

# СВЯЗЬ ИНСТИТУТА ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С НАУЧНЫМИ И ОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ

**Akif Nuragha Abbasov,**
*doctor of science in pedagogy, professor*
*scientific secretary at Institute of Education of the Republic of Azerbaijan, Honored teacher*

# COMMUNİCATİON OF THE İNSTİTUTE OF EDUCATİON OF THE REPUBLİC OF AZERBAİJAN WİTH SCIENTIFIC AND EDUCATIONAL INSTITUTIONS

***Açar sözlər:*** *təhsil institutu, elmi müəssisələr, təhsil müəssisələri, institutun əlaqəsi, xarici ölkələrlə əməkdaşlıq*

***Ключевые слова****: институт образования, научные учреждения, образовательные учреждения, связь института, сотрудничество с иностранными сстранами*

***Keywords****: institute of education, scientific institutions, educational institutions, communication of the institute, cooperation with foreign countries*

İnstitut öz fəaliyyətində elm və təhsil müəssisələri ilə əlaqələrə üstünlük verir. Əgər bu əlaqələrin tarixinə nəzər salsaq, deyə bilərik ki, vaxtilə - ittifaqa daxil olduğumuz illərdə institutun SSRİ Pedaqoji Elmlər Akademiyası, onun ayrı-ayrı institutları ilə sıx bağlılığı olmuşdur.

SSRİ PEA 1967-ci ildə yaradılmışdı. Əməkdaşlarımız tez-tez akademiyanın müvafiq institutlarına ezam olunur, aparılan tədqiqatlarla tanış olur, görkəmli alimlərdən məsləhətlər alırdılar. Elmi işçilərimizin bir qismi ötən əsrin 70-90-cı illərində Moskva, Leninqrad, Çelyabinsk və Rusiyanın müxtəlif şəhərlərində, eyni zamanda Kiyevdə, Tiflisdə dissertasiyalar müdafiə edirdilər.

Hazırda institutumuzun böyük elmi məsləhətçisi olan professor Yəhya Kərimov 1972-ci ildə SSRİ PEA-nın İbtidai təlim üzrə problem şurasına üzv seçilmiş, 1981-ci ildən isə SSRİ Maarif Nazirliyi tədris-metodik şurası ümumtəhsil məktəblərində 6 yaşdan ibtidai təlim problemləri üzrə komissiyaya daxil edilmişdi.

Prof. Y.Ş. Kərimov uzun illər Özbəkistan və Qazaxıstanda müdafiə şuralarının üzvü olmuşdur.

İnstitutun digər böyük elmi məsləhətçisi professor Vidadi Xəlilov 1978-1990-ci illərdə SSRİ PEA-nın Estetik tərbiyə üzrə problem elmi şurasının üzvü kimi fəaliyyət göstərmişdir.

İttifaqın süqutundan sonra SSRİ Pedaqoji Elmlər Akademiyası Rusiya Təhsil Akademiyası kimi formalaşdırıldı. İnstitut akademiya ilə əlaqələrini davam etdirdi. 2003-cü il noyabrın 22-də Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu və Rusiya Təhsil Akademiyası arasında "Təhsil və pedaqoji elmlər sahəsində əməkdaşlığ"a dair beş illik müqavilə bağlandı. Müqavilə 10 maddədən ibarət idi. Həmin müqaviləyə əsasən, birgə tədqiqatlar aparılırdı.

Professor Akif Abbasov 1987-ci ildə Moskvada nəşr olunan "Воспитание школьников» jurnalının Azərbaycan Respublikası üzrə müxbir postunun üzvü seçilmişdi (SSRİ Maarif Nazirliyinin 30 iyul 1987-ci il tarixli, 135-86/16 nömrəli məktubuna əsasən, Azərbaycan Respublikası Maarif Nazirliyinin 30 noyabr 1987-ci il tarixli, 378 nömrəli əmri).

Hazırda isə, prof. A.N. Abbasov Ukrayna Milli Müdafiə Universitetinin orqanı olan "Viiskovo osvita" jurnalının redaksiya heyətinin üzvüdür.

Ölkəmiz ikinci dəfə müstəqilliyinə qovuşandan sonra institut əməkdaşları bir sıra xarici ölkələrdə [Amerika Birləşmiş Ştatları, İzrail, Türkiyə, Niderland, Fransa, İsveç, Latviya, Gürcüstan, İngiltərə, Finlandiya, Avstraliya və b.] ezamiyyədə olmuş, təhsil və elm müəssisələrinin fəaliyyəti ilə tanış olmuş, təcrübə mübadilələri aparmışlar.

Bu tipli işgüzar səfərlər hazırda da davam etməkdədir.

İnstitut əməkdaşları respublikanın elm və təhsil müəssisələri ilə ittifaqa daxil olduğumuz illərdə də, hazırda da müntəzəm əlaqə saxlayırlar. İşçilərimizin bir qismi institutda çalışmaqla yanaşı ali, orta ixtisas, ümumtəhsil və xüsusi məktəblərdə dərs deyirlər.

Elm və təhsil müəssisələri ilə əlaqələri aşağıdakı şəkildə səciyyələndirmək mümkündür:

**1. Azərbaycan Milli Elmlər Akademiyası ilə əlaqə**. Son illərə qədər AMEA-nın nəzdində olan Pedaqogika və Psixologiya Problemləri üzrə Problem Şurası institutda fəaliyyət göstərmişdir (2001-2019-cu illərdə sədri əvvəlcə prof. A.O. Mehrabov, sonra prof. İ.H. Cəbrayılov olmuşdur). Şuranın hesabatları AMEA-ya təqdim olunurdu. Bundan başqa, respublikada elmi haqqında danışılan akademiya əlaqələndirdiyindən institutda aparılan tədqiqatların nəticələri barədə də akademiyaya məlumatlar verilirdi. Bundan başqa, institut əməkdaşları AMEA-nın tədbirlərində, illik hesabatlarında, təşkil etdiyi konfranslarda iştirak etmiş və yenə də iştirak etməkdədirlər.

**2. İnstitut əməkdaşlarının Rusiyada fəaliyyət göstərən akademiyalarla əlaqələri.** İnstitut əməkdaşlarının bəzilərinin Rusiya Təhsil Akademiyası, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyası ilə əlaqələri genişdir. Belə ki, professor Hümeyir Əhmədov Rusiya Təhsil Akademiyasının xarici üzvüdür. Professorlar Akif Abbasov, Vidadi Xəlilov və Hümeyir Əhmədov Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvüdürlər.

**3. İnstitut əməkdaşlarının ictimai qurumlarla əlaqələri**. Professor Akif Abbasov və dosent Adilə Nəzərova Azərbaycan Yazıçılar birliyinin, A.N. Abbasov eyni zamanda Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

**4. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası ilə əlaqə**. AAK ilə institutun əlaqələri daha genişdir. Professor və dosent elmi adlarının alınması ilə bağlı institutun Elmi Şurası Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırır. Vaxtilə institutda dissertasiya şuraları fəaliyyət göstərirdi. Təbii ki, həmin zamanlar AAK qarşısında müdafiə olunmuş işlərin təsdiqi ilə bağlı vəsatət qaldırılırdı.

İnstitut əməkdaşlarından vaxtilə professorlar Z.İ. Qaralov, Ə.R. Əfəndizadə, Ə.Ə. Ağayev, Ş.A. Mikayılov, son zamanlarda professorlardan A.N. Abbasov, V.C. Xəlilov Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olmuşlar. Hazırda P.B. Əliyev və E.B. Bəylərov ekspert şurasının üzvüdürlər.

**5. Təhsil müəssisələrində dövlət imtahan komissiyalarına sədrlik**. Professorlardan A.N. Abbasov, V.C. Xəlilov, P.B. Əliyev, İ.H. Cəbrayılov, dosentlərdən Ə.M. Abbasov, İ.A. Cavadov Gəncə Dövlət Universitetində, Bakı Qızlar Universitetində, Kommersiya Universitetində, Azərbaycan Dövlət Pedaqoji Kollecində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və filiallarında, Bakı Slavyan Universitetində dövlət imtahan komissiyalarına sədrlik etmişlər.

**6. Elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə doktorant və dissertantlara elmi rəhbərlik və elmi məsləhətçiliklə bağlı**. Bu əlaqə ikitərəflidir: ya institut əməkdaşları [professorlar A.N. Abbasov, Ə.M. Abbasov, İ.H. Cəbrayılov, H.H. Əhmədov, P.B. Əliyev, V.C. Xəlilov və b.] elmi rəhbərliyə, elmi məsləhətçiliyə cəlb olunur, yaxud da başqa universitetlərdə çalışan alimlər institutun doktorant və dissertantlarına elmi rəhbərlik üçün [AMEA-nın İnformasiya İnstitutundan akad. R. Əliquliyev, ADPU-dan professorlar F.A. Rüstəmov, R.İ. Əliyev, M.İ. İlyasov, R.L. Hüseynzadə, ADU-dan prof. D.Ə. İsmayılova və b.] elmi rəhbərlik üçün dəvət olunurlar.

**7. Dissertasiya şuralarında üzvlük.** İnstitut əməkdaşları bir sıra dissertasiya şuralarında üzv olmuşlar və hazırda da üzvdürlər. Prof. A.N. Abbasov Bakı Dövlət Universitetində fəaliyyət göstərən psixologiya üzrə dissertasiya şurasının üzvü və elmi katibi, Azərbaycan Dillər Universitetində birdəfəlik doktorluq şuralarının üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki pedaqoji elmlər üzrə dissertasiya şurasının üzvü olmuşdur.

Dos. Ə.M. Abbasov və prof. H.H. Əhmədov hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki pedaqoji elmlər üzrə dissertasiya şurasının üzvü; prof. İ.H. Cəbrayılov isə həmin şuranın nəzdindəki elmi seminarın sədr müavinidir.

**8. Universitetlərin "Elmi əsərlər"ində redaksiya heyətinin üzvü**. Ə.M. Abbasov və İ.H. Cəbrayılov "Azərbaycan məktəbi" jurnalının, İ.H. Cəbrayılov eyni zamanda "Pedaqogika" jurnalının, A.N. Abbasov "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" (BSU), "Azərbaycanda xarici dillər" (ADU), Naxçıvan Müəllimlər İnstitutunun "Elmi əsərləri"nin redaksiya heyətinin üzvü; eyni zamanda Bakı Qızlar Universitetinin "Elmi əsərlər"inin baş redaktorunun müavinidir.